**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Ordumuz Qarabağda dastan yazır

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

## Hadisələr Azərbaycan əsgərinin döyüş və mənəvi-psixoloji hazırlığının, qələbə əzminin yüksək olduğunu nümayiş etdirir

**Azərbaycan dünyada müasir döyüş imkanlarına sahib ordusu ilə tanınmağa başlayır. Ən çətin vəzifələri çevik, operativ və yüksək dəqiqliklə yerinə yetirmək imkanlarına malik olan ordumuzun modern standartlara cavab verən hərbi gücə çevrilməsi olduqca qürurvericidir. Müasir Azərbaycan Ordusunun ilk genişmiqyaslı döyüş sınağı 2016-cı ilin aprelində baş verən dörd günlük müharibədir. Hərb tariximizə həkk olunan 2016-cı ilin aprel hadisələri, cəbhə xəttində erməni hərbi birləşmələrinin təxribatlarının qarşısının alınması məqsədilə Azərbaycan Ordusunun həyata keçirdiyi cavab tədbirləri Silahlı Qüvvələrimizin gücünün praktik təsdiqi oldu.**

Aprel döyüşləri, eyni zamanda, ordumuzun peşəkarlığını göstərdi. Ordumuz əlverişsiz mövqelərdən əks-hücum əməliyyatı apararaq strateji mövqelərə sahib oldu. Bu ilin iyul ayında Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz istiqamətində baş verənlər isə aprel hadisələrinin təsadüfi olmadığını təsdiq etdi. Bu dəfə də Ermənistanın hərbi təxribatının qarşısını alan hərbçilərimiz yeni qəhrəmanlıq dastanı yazdılar.

Sentyabr ayının 27-də düşmənin növbəti dəfə qəfil və xain hücumunun qarşısını dərhal alaraq ona sarsıdıcı zərbə vuran, qaçmağa məcbur edən Ordumuz Ermənistanı darmadağın etməyə qadir olduğunu Aprel və İyun döyüşlərindən sonra bir daha döyüş meydanında sübut etməkdədir. Ordumuzun hər uğuru mühüm hərbi qələbə olmaqla yanaşı, beynəlxalq arenada bütün diqqəti Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə cəlb edib. Hadisələr Azərbaycan əsgərinin döyüş və mənəvi-psixoloji hazırlığının, qələbə əzminin yüksək olduğunu nümayiş etdirir. Bu döyüşlər dövlətimizin və ordumuzun gücünü, xalqın birliyini, həmrəyliyini, vətənpərvərliyini, Azərbaycanın heç vaxt işğalla barışmayacağını, nəyin bahasına olursa-olsun, ərazi bütövlüyünü bərpa etmək əzmində olduğunu bir daha göstərir. Məhz ordumuzun gücü ilə status-kvo və Ermənistanın xüsusi planlarla formalaşdırdığı düzxətli qısa təmas xətti dəyişdi. Qarabağ uğrunda Vətən müharibəsi tarixində ən əlamətdar qələbələrin kökündə məhz bu dayanır. Azərbaycan Prezidenti son 2-3 həftə ərzində dünyanın ən müxtəlif populyar media orqanlarına geniş müsahibələrində ordumuzun uğurlarının nələrə söykəndiyini bütün dünyaya nümayiş etdirdi. Dövlət başçısı ordumuzun güc mənbələrini dostlara və düşmənlərə hər kəsin başa düşdüyü şəkildə izah etdi. Dünya müqayisə aparmaq imkanı əldə etdi ki, Azərbaycan ordusunun güc mənbələri haradadır, Ermənistan ordusunun gücsüzlük səbəbləri nədir. Ölkə rəhbəri göstərdi ki, Azərbaycan ordusu ən müasir intellektual hərbi texnika və texnologiyaların üzərində dayanıb, xalqın birmənalı və geniş dəstəyinə söykənir, möhkəm nizam-intizam var, haqq işi uğrunda döyüşdüyünə möhkəm inanır, canlı qüvvə sarıdan böyük ehtiyatlara malikdir, öz tarixinə və torpağına qırılmaz şəkildə bağlıdır. Ordumuzun biri-birinin ardınca azad etdiyi yaşayış məntəqələri onun gücü ilə tam mütənasibdir. Ordumuz indiki imkanlara bütün işğaldakı ərazilərimizi sonadək azad etmək gücünə malik olduğunu sübut edir. Təsadüfi deyil ki, düşmən Ermənistanın ideoloqları ordumuzun malik olduğu üstünlükləri və legitim güc mənbələrini şübhə altına almaq və gözdən salmaq üçün hər cür yalanlara əl atır. Düşmənin ən çox hallandırdığı və iflasa uğradığı tezis guya ordumuzda başqa ölkələrdən gətirilmiş muzdlu döyüşçülərin olmasıdır. Prezident ordumuzu xarici muzdlularla bağlamaq istəyən düşmən təbliğatını o qədər dəqiq və arqumentli darmadağın etdi ki, onlara nəsə əlavə etmək mümkün deyil. Prezident, əksinə, Ermənistanın özünün əsasən cinayətkar - kriminal muzdlulardan ibarət hərbi birləşmələrin ümidinə qaldığına möhkəm beynəlxalq inam yarada bildi. Dünya artıq əmindir ki, ermənilər bir vaxtlar özləri dəfn etdikləri ASALA-nı yenidən bərpa ediblər. Məqsəd aydındır və ASALA-nın güc və döyüş taktikasından, canlı qüvvəsindən istifadə etməkdir. Azərbaycan dövlətinin Dağlıq Qarabağın terrorçular üçün təlim-məşq meydanına çevrildiyi barədə daha əvvəllərdən ortaya qoyduğu xəbərdarlıqlar da özünü doğruldur. İndi Ermənistan ordusunun əsas kadr bazası Yaxın Şərqdən və Qərb ölkələrindən gətirilən terrorçulardır.

Qarabağda Azərbaycan Silahlı Qüvvələrinin tətbiq etdiyi ən müasir hərbi texnikalar amerikalı generalları da heyrətə düşürüb. ABŞ Ordusunun Baş Qərargah rəisi, general James Makkonvill "Army Times" qəzetinə verdiyi müsahibəsində söyləyib ki, Dağlıq Qarabağdakı qarşıdurma zamanı pilotsuz uçan aparatların (PUA) aktiv istifadəsi Amerika Silahlı Qüvvələrinin modernləşdirilməsinin zəruriliyini, o cümlədən hava hücumundan müdafiə sistemlərinin inkişafının vacibliyini göstərir. Onun sözlərinə görə, bölgədəki müharibə metodları çoxlarını tankların müasir döyüş üçün çox yavaş və bahalı bir vasitə olub-olmadığını düşünməyə vadar edib: "Bu döyüşlərdə (Qarabağda) gördüyümüz kimi ölümcül pilotsuz təyyarələr var". Makkonvil ABŞ Quru Qoşunlarının modernləşdirilməsinin prioritetlərindən biri kimi hava hücumundan və raketlərdən müdafiə sistemlərinə üstünlük verilməyini vurğulayıb: "İnsansız hava sistemlərinin qruplarını tanımaq və onları vurmaq üçün bir çox imkanları inkişaf etdiririk". O, döyüş əməliyyatları zamanı ordunun müxtəlif qolları arasında ən operativ koordinasiyanın vacibliyini də bildirib.

*Rusiyalı hərbi-ekspert Aleksandr Mixaylovski isə "Moskovski Komsomolets" üçün verdiyi şərhdə deyib ki, Azərbaycan EA-2 köhnə sovet təyyarələrini (məşhur "kukuruznik"lər) pilotsuz təyyarələr formatına salıb.* Ermənistanın HHM sistemi rəqibin Hava Hücumu Qüvvələrinə qarşı mübarizədə tez-tez əldə etdiyi uğurlardan danışır, həmin təyyarələri asanlıqla məhv etdiyi barədə raportlar verirdi. Sonra məlum oldu ki, "kukuruznik"lər qoşunların təmas xətti boyunca uçaraq, Ermənistan HHM-nin diqqətini özünə cəlb edib və düşmən texnikasının dislokasiyası barədə dəqiq məlumat verib. Daha sonra yerli HHM sisteminin "Osa" və "Strela" tipli bütün zenit raket kompleksləri məhv edilib: "Sovet ordusunda mövcud olan normativlərə görə, hədəfin aşkar edilməsi və raketlərin buraxılması üçün 1-2 dəqiqə, işə salınma rayonunu tərk etmək üçün isə maksimum on dəqiqə vaxt verilməli idi. Bəs onlar niyə özlərini nişan verir və yerlərində qalırdılar? Görünür, rəqibdən bu cür hərəkətləri gözləmirdilər. Bundan başqa, əgər pilotsuz-kəşfiyyatçı hədəfə lazer şüası ilə işarə verərsə, hücum dronu, qurğunun yerləşdiyi yerdən bir neçə kilometr məsafədən lazerlə ağıllı idarə olunan raketlərdən atəş aça bilər".

Azərbaycanın müzəffər ordusunun Qarabağda tarix yazması əslində o qədər də təəccüb doğurmamalıdır. XXI əsrin ikinci onilliyinin əvvəlindən başlayaraq Azərbaycan Ordusu öz inkişafının ən uğurlu dövrünü yaşamaqdadır. Çünki 15 il ərzində birbaşa ölkə rəhbərliyinin müvafiq göstərişi ilə Ordumuzun maddi-texniki inkişafı, əsgər və zabit heyətinin peşəkarlığını artırmaq üçün çoxsaylı tədbirlər həyata keçirilib. Ordu quruculuğu sahəsində həyata keçirilən aydın siyasət, konkret tədbirlər ordumuzu Cənubi Qafqazın ən güclü silahlı qüvvəsinə çevirməklə, dünya miqyasında ön sıralardan birinə çıxarıb. Son bir neçə il ərzində hərbi xərclərimiz 20 dəfədən çox artırılıb. Hazırda bu xərclər 3,6 milyard dollar səviyyəsindədir. Bu da Ermənistanın bütün dövlət xərclərindən 50 faiz çoxdur. Müdafiə Sənayesi Nazirliyi qısa müddətdə ordumuz üçün ən modern silahlar istehsal etməyə başlayıb. Azərbaycanda 20-dən çox hərbi təyinatlı zavod və istehsalat birlikləri yaradılıb və 1000-dən çox müxtəlif adda hərbi təyinatlı məmulat istehsal edilir. Bu gün cəbhədə düşmənə divan tutan Azərbaycan Ordusunun ixtiyarında ən müasir döyüş sistemləri var. Bu da ordunun döyüş qabiliyyətini xeyli artırır. O cümlədən 152 mm-lik "Msta-C", 120 mm-lik "Vena" özüyeriyən artilleriya qurğuları, 120 mm-lik "Sani2" minaatan kompleksi, 220 mm-lik TOS-1A reaktiv qurğuları, 122 mm-lik T-122 "Sakariya", 300 mm-lik "Qasırğa", 300 mm-lik "Smerç" yaylım atəşli reaktiv artilleriya sistemləri, "Maşina-M" markalı özüyeriyən artilleriya divizionunun atəşi avtomatik idarəetmə kompleksi, PRTMK-1 radiopelenqasiya meteoroloji kompleksi, ən müasir hərbi təyyarələr və vertolyotlar, hava hücumundan müdafiə sistemləri və s. silah və texnikalar arsenalımızdadır.

**Ehtiyatda olan polkovnik, hərbi-ekspert Şair Ramaldanov da vurğulayıb ki, Azərbaycan Silahlı Qüvvələri Ermənistan ordusunun təxribatlarına qarşı əks-hücum zamanı müasir döyüş taktikası həyata keçirir.** Polkovnik bildirib ki, Ordumuzun döyüş taktikası tam müasir tələblərə uyğun aparılır: "Yeni artıq köhnə döyüş üsulları tətbiq edilmir. Azərbaycan Ordusu bu gün müasir texnika və silahla təmin olunub. Bu da döyüşün aparılmasında müəyyən dəyişikliyə və müasirliyə gətirib çıxarır. Hazırda Azərbaycan Ordusu düşmənin uzaqda və dərinlikdə olan atəş nöqtələrinə zərbələr endirir, texniki vasitələri məhv edilir, mövqeləri darmadağın edilir. Orduda olan müasir silahlar buna imkan verir. Müdafiə Nazirliyinin yaydığı videomateriallarda da bunu aydın görmək olur. Bu üsulla aparılan döyüşlər zamanı düşmənə maksimum zərbələr endirərək onları zəiflədir, şəxsi heyətimiz arasında itkiləri minimuma endirir. Mən deyərdim ki, itkilərimiz gözləniləndən də çox azdır. 30 il bir mövqedə möhkəmlənən düşmənin üstünə gedən ordu üçün, təbii ki, itkilər qaçılmazdır, lakin müasir texnika və silahlardan istifadə bizim itkilərimizi minimuma endirib. Bu döyüşlər birinci Qarabağ döyüşlərindən xeyli fərqlənir. Çünki həmin vaxt Azərbaycan Ordusu insan gücü ilə döyüşürdü, indi isə texniki imkanlar və dəqiq atəş vasitələrindən istifadə olunur və döyüş tapşırıqları dəqiqliklə yerinə yetirilir". Ş.Ramaldanov Azərbaycan Ordusunun daha bir nailiyyətindən də danışıb: "Ermənistanın S-300 zenit raket kompleksinin məhv edilməsi Azərbaycan tarixində ilkdir. Azərbaycan Ordusu müasir texniki vasitələrdən istifadə edərək bu qurğunu məhv etdi. Xüsusi texnikalar vasitəsilə bu qurğunun yeri müəyyənləşdirildi və vuruldu. Ordumuz erməni tərəfə xəbərdarlıq da etmişdi ki, əgər S-300 raket kompleksi Azərbaycan ərazisində hərəkət edərsə, onun yeri müəyyənləşdiriləcək və vurulacaq".

**Ağ Partiya sədrinin müavini, politoloq Əhəd Məmmədli də qeyd edib ki, bu savaşda Türkiyəyə məxsus "Bayraktar" dronlarının və digər müasir silahların tətbiq edilməsi cəbhədə ciddi uğurlar qazanmağımıza səbəb oldu:** "Artıq bu reallığı xarici ölkələrin hərbçiləri də etiraf edirlər. Xüsusən Türkiyəyə məxsus SİHA-lar dünya döyüş sisteminin gedişini dəyişdi. Böyük və ağır yüklü hərbi maşınlar getdikcə əhəmiyyətini itirməkdədir. Azərbaycan Ordusu həm taktiki gedişləri, həm də modern texnikaları ilə Qarabağda yeni müharibə səhifəsi açdı. Müasir silah-sursatın önəmini heç kim arxa plana ata bilməz. Amma vurğulamaq lazımdır ki, savaşda əsas faktor həm də vətənpərvərlik ruhudur, torpaq sevgisidir. Misal üçün deyim ki, hazırda dünyada ən yüksək səviyyədə və müasir hərbi texnika ilə silahlanmış ABŞ ordusudur. Amma bu ordu Əfqanıstanda Taliban problemini həll edə bilmədi, onlarla masa arxasına oturmağa məcbur qaldı. Lakin Azərbaycan Ordusundakı hərbi heyətin yüksək peşəkarlığı, döyüş ruhu, Vətən məhəbbəti Qarabağ zəfərlərində danılmaz faktdır".

**İsmayıl Qocayev**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə çap olunub